Azərbaycan Respublikasının
Dövlət Turizm Agentliyi

azərbaycan
TURİZM BÜROSU

# Marketinq
# *Fəaliyyət planı*
# *2025 icmalı*

**Versiya: 1.0** (Sentyabr 2024)
**Səhifə sayı:** 7

Bu sənəd (əlavə və qoşmalarla birlikdə) yalnız Azərbaycan Respublikası Dovlət Turizm Agentliyi (DTA) və Azərbaycan Turizm Bürosu (ATB) üçün hazırlanmışdır. O yalnız təqdim edildiyi məqsəd üçün nəzərdə tutulub. DTA/ATB-nin açıq şəkildə yazılı icazəsi alınmadan bu sənədin heç bir hissəsinin üçüncü tərəflər üçün surəti çıxarıla, paylaşıla və ya açıqlana bilməz. DTA/ATB bu sənədin nəzərdə tutulmuş məqsədindən başqa məqsədlər üçün istifadə edilməsi və ya səlahiyyəti olmayan tərəflərə açıqlanması halında hər hansı bir məsuliyyət daşımır.

## 1. Qlobal brend məlumatlılığı kampaniyaları

Qlobal brend məlumatlılığı kampaniyalarımız Azərbaycanı əsas və inkişaf edən bazarlarda genişmiqyaslı media nümayişləri və beynəlxalq media platformaları, açıq məkan reklamları və rəqəmsal kanallar vasitəsilə yüksək təsirli reklamlarla aparıcı səyahət məkanı kimi tanıtmağı hədəfləyir.

- **Televiziya kampaniyaları:** Əsas bazarlarda Euronews və CNN kimi böyük beynəlxalq şəbəkələrdə, eləcə də regional və milli televiziya kanallarında reklam kampaniyalarının həyata keçirilməsi
- **Açıq məkan reklamı:** Rusiya və Türkiyədə strateji yerlərdə məqsədli yerləşdirilmiş reklamlar vasitəsilə brendin görünməsinin artırılması

## 2. Sosial media marketinqi

Bu təşəbbüslər qlobal və əsas bazarlarda müxtəlif sosial media platformalarından istifadə edərək auditoriya əlaqəsini gücləndirməyə, Meta, LinkedIn və TikTok kimi kanallarda hədəfli məzmun vasitəsilə Azərbaycanın rəqəmsal platformalarda görünməsini artırmağa yönəlib.

Müxtəlif platformalarda spesifik auditoriya seqmentlərinə uyğunlaşdırılmış aktiv əlaqələr qurulması:

- **Meta** (Facebook və Instagram)
- Meta vasitəsilə dünya miqyasında auditoriyaya çatmaq üçün fərdiləşdirilmiş ödənişli tərəfdaşlıq
- Mətn və foto məzmunu vasitəsilə gənc auditoriya ilə əlaqə yaratmaq üçün **Threads** platforması.
- Siyasi auditoriya ilə əlaqə yaratmaq üçün **X** platforması
- Çin auditoriyası ilə əlaqə yaratmaq üçün **Weibo və Wechat** platforması
- BƏƏ auditoriyası ilə əlaqə yaratmaq üçün **Snapchat** platforması
- Rusdilli bazarlar üçün **Yappy, ЯRUS, OK, Dzen.ru, Telegram, RuTube** və **Vkontakte** platformaları
- VK vasitəsilə daha geniş rusdilli auditoriyaya çatmaq üçün fərdiləşdirilmiş ödənişli tərəfdaşlıq
- Peşəkar və B2B əlaqələr üçün **LinkedIn** platforması
- Trendlə uyğunlaşan, daha gənc auditoriya ilə əlaqə qurmaq üçün **TikTok**
- Mədəni maarifləndirmə yaratmaq üçün **YouTube** və **YouTube shorts**
- YouTube vasitəsilə mədəniyyəti daha geniş auditoriyaya tanıtmaq üçün fərdiləşdirilmiş ödənişli tərəfdaşlıq
- Səyahət motivasiyası axtaran dünya miqyasında səyyahlarla əlaqə üçün **Pinterest** platforması

## 3. Rəqəmsal kampaniyalar - əsas bazarlar və tematik fokus

Rəqəmsal kampaniyalarımız strateji şəkildə əsas bazarları hədəfləyir və spesifik mövzulara uyğunlaşdırılaraq yüksək trafikli səyahət və həyat tərzi platformalarında kulinariya və toy turizmi kimi xüsusi seqmentlər üçün görünməni və əlaqəni artırır.

Əsas bazarlarda tematik hədəflənmə ilə strateji rəqəmsal marketinq səyləri:

- **Google** (YouTube daxil olmaqla)

- Regional onlayn səyahət agentlikləri və rezervasiya platformaları: **WEGO (Yaxın Şərq), Expedia (Birləşmiş Krallıq, Avropa, Amerika), Ctrip (Çin), MakeMyTrip (Hindistan), Aviasales və Yandex Travel (Rusiya, MDB), Lamatayel (İsrail), Enuygun (Türkiyə)**

- "Bir daha bax" brendinin dörd təklifinə uyğun tematik platformalar:

    - Qastroturizm üçün **50Best**
    - Azərbaycanın toy destinasiyası kimi tanıdılması üçün **Weddingsutra**
    - Haykinq marşrutlarının tanıdılması üçün **AllTrails**

**Tərəfdaşlıq imkanları:** Rəqəmsal kampaniyalarımız çərçivəsində əməkdaşlıq imkanlarını araşdırmaq, daha ətraflı məlumat və fərdiləşdirilmiş tərəfdaşlıq həlləri üçün  Marketinq sektorunun müdiri Əzizə Mahmudova ilə əlaqə saxlayın: **aziza.mahmudova@tourismboard.az**

## 4. Sərgilər, yol şouları və destinasiya seminarları

Sərgilərdə iştirak etmək, yol şouları təşkil etmək və destinasiya seminarları keçirmək beynəlxalq səyahət ticarəti tərəfdaşları ilə birbaşa əlaqə qurmaq, Azərbaycanın turizm təkliflərini tanıtmaq və əlaqələri gücləndirmək üçün əsas fəaliyyətlərdir.

**Sərgilər:** Azərbaycanın destinasiya stendi ilə əsas qlobal sərgilərdə iştirak:

| | | |
|---|---|---|
| **January** | | |
| Ferien Messe Wien | Vyana, Avstriya | 16-19 yanvar |
| FITUR | Madrid, İspaniya | 22-26 yanvar |
| OTM Mumbai | Mumbay, Hindistan | 30 yanvar - 1 fevral |
| PTM | Kəraçi, Pakistan | 31 yanvar - 2 fevral |
| **February** | | |
| EMITT | İstanbul, Türkiyə | 5-7 fevral |
| SATTE | Yeni Dehli, Hindistan | 19-21 fevral |
| **March** | | |
| ITB Berlin | Berlin, Almaniya | 4-6 mart |
| MITT | Moskva, Rusiya | 18-20 mart |
| **April** | | |
| KITF | Almatı, Qazaxıstan | 23-25 aprel |
| ATM Dubai | Dubay, BƏƏ | 28 aprel - 1 may |
| **May** | | |
| IMTM | Təl-Əviv, İsrail | 7-8 may |
| ITB China | Şanxay, Çin | 27-29 may |
| SITF | Seul, Cənubi Koreya | Təsdiqlənəcək, May |
| **August** | | |
| BLTM | Yeni Dehli, Hindistan | 28-30 avqust |
| **September** | | |
| TEJ | Tokio, Yaponiya | Təsdiqlənəcək, Sentyabr |
| **October** | | |
| ITB Asia | Sinqapur | 15-17 oktyabr |
| **November** | | |
| WTM London | London, Birləşmiş Krallıq | 4-6 noyabr |
| TITF | Daşkənd, Özbəkistan | Təsdiqlənəcək, Noyabr |

## Yol şouları (B2B vörkşoplar seriyası):

| **2-ci rüb** |
|---|
| • **Körfəz ölkələri:** BƏƏ, Səudiyyə Ərəbistanı, Qətər, Bəhreyn, Küveyt, Oman |
| • **Hindistan:** Çennai, Heydərabad, Əhmədabad |
| • **Pakistan:** Lahor, Kəraçi |
| • **İsrail:** Təl-Əviv, Qüds |
| **3-cü rüb** |
| • **MDB:** Rusiya, Qazaxıstan, Özbəkistan, Belarus |
| • **Asiya:** Çin, Cənubi Koreya |
| • **Türkiyə:** İstanbul, İzmir, Ankara |
| **Quarter 4** |
| • **Mərkəzi Avropa:** Polşa, Çexiya, Macarıstan |
| • **Aralıq hövzəsi:** İtaliya, İspaniya |
| • **Baltikyanı:** Latviya, Litva, Estoniya |
| • **DACH ölkələri:** Almaniya, Avstriya, İsveçrə |
| • **Cənubi Asiya:** İndoneziya, Malayziya, Sinqapur |

**Destinasiya seminarları: Qahirə** (Misir)**, Kəlkətə, Caypur və Surat** (Hindistan)**, Kasablanka** (Mərakeş)**, Çansa, Çonqçin, Hanqjou və Sujou** (Çin)**, Krasnodar, Novosibirsk və Yekaterinburq** (Rusiya)**, Təbriz və Tehran** (İran) şəhərlərində Azərbaycanın turizm potensialının təqdimatı

**Tərəfdaş imkanları:** Yerli turizm şirkətləri, hotellər və DMT-lər (Destinasiya Menecmenti Təşkilatları) sərgilərə, yol şoularına və seminarlara qatılaraq beynəlxalq tərəfdaşlarla birbaşa əlaqə qura bilərlər. Həmçinin bu tədbirlərdə redaksiya heyətləri və media nümayəndələrini qonaq edə, məzmun və rəylər təqdim edərək bazardakı görünmələrini və etimadlarını artıra bilərlər.

Elan etdiyimiz beynəlxalq tədbirləri qaçırmamaq üçün zəhmət olmasa, vebsaytımızı izləyin.

Bizim tərəfimizdən təşkil edilən fəaliyyətlərdən əlavə güvəndiyimiz tərəfdaşlarımızın təşkil etdiyi üçüncü tərəf fəaliyyətlərini də araşdırmağa təşviq edirik. Bütün bu fəaliyyətlər vebsaytımızın beynəlxalq bazar profilləri bölməsində mövcuddur və burada müvafiq bazar menecerlərinin ətraflı məlumatları və əlaqə vasitələri mövcuddur.

## 5. Ticarət nümayəndələri üçün tanışlıq səfərləri

Tanışlıq səfərləri beynəlxalq turizm nümayəndələrini Azərbaycanı birbaşa təcrübədən keçirməyə dəvət edərək onların destinasiya haqqında məlumatlılığını və dəstəyini artırır. Bu səyahətlər Azərbaycanın unikal təcrübələrini və infrastrukturunu nümayiş etdirməyə yönələrək hər bir  bazarın maraqlarına uyğun şəkildə, mədəniyyət və təbiət nümunələrindən lüks və sağlamlıq seçimlərinə qədər fərdiləşdirilmiş marşrutları əhatə edir.

### Təşkil olunmuş tanışlıq səfərləri:

Tanışlıq səfərləri Avstriya, Bəhreyn, Belarus, Bolqarıstan, Çin, Çexiya, Misir, Estoniya, Almaniya, Macarıstan, Hindistan, İndoneziya, İran, İsrail, İtaliya, Yaponiya, Qazaxıstan, Küveyt, Latviya, Litva, Malayziya, Mərakeş, Oman, Pakistan, Polşa, Qətər, Rumıniya, Rusiya, Səudiyyə Ərəbistanı, Sinqapur, Cənubi Koreya, İspaniya, İsveçrə, Türkiyə, BƏƏ, Birləşmiş Krallıq və Özbəkitan kimi müxtəlif bazarlar üçün planlaşdırılıb.

**Tərəfdaş imkanları:** Hotellər, tur operatorları və tədbir təşkilatçıları kimi yerli tərəfdaşlar bu tanışlıq səfərlərinin müəyyən hissələrinə ev sahibliyi etməyə dəvət olunur və bununla da nüfuzlu bazar nümayəndələri tərəfindən tanınma imkanı qazanırlar.

Ətraflı məlumat və müvafiq bazar menecerləri ilə əlaqə üçün hər bir bazarın əlaqə məlumatının mövcud olduğu vebsaytımızın beynəlxalq bazar profilləri bölməsini ziyarət edin .

## 6. Media əməkdaşlıqları

Azərbaycanın görünməsini artırmaq üçün aparıcı rəqəmsal və çap platformaları ilə strateji media əməkdaşlıqları, eləcə də influenserlər və məzmun yaradıcıları ilə tərəfdaşlıqlar həyata keçirilir. Bu təşəbbüslər Azərbaycanın unikal turizm təkliflərini, mədəniyyətini və tədbirlərini orijinal, cəlbedici və etibarlı şəkildə nümayiş etdirməyi hədəfləyir.

**Məzmun Növləri:** Azərbaycanın kampaniyalarına öncül səyahət və həyat tərzi platformalarında sponsorlu məqalələr və reklam mətnləri, ölkəni aparıcı destinasiya kimi vurğulayan xüsusi buraxılışlar, həmçinin brend tanınmasını gücləndirmək üçün düzgün yerləşdirilmiş bannerlər və rəqəmsal reklamlar daxil olacaq. Əməkdaşlıqlar YouTube, Instagram, TikTok və yerli platformalar kimi məşhur kanallarda cəlbedici təhkiyə vasitəsilə auditoriyanı təsirləndirmək üçün video məzmun, qısametrajlı sənədli filmlər və influenser tərəfdaşlıqlarını da əhatə edəcək.

Beynəlxalq səyahət və həyat tərzi nəşrləri, eləcə də macəra, ekoturizm və lüks mövzularına fokuslanan regional və xüsusi mövzulu jurnallar.

**Tərəfdaşlıq fürsətləri:** Yerli turizm müəssisələri, hotellər və xidmət təminatçıları ortaq brendli media məzmununda iştirak edə, redaktorları və ya influenserləri qonaq edərək çap və rəqəmsal kanalların işıqlandırması vasitəsilə görünmələrini artıra bilərlər.

Media əməkdaşlıqları çərçivəsində imkanları araşdırmaq, daha ətraflı məlumat və fərdiləşdirilmiş tərəfdaşlıq həlləri üçün Media və kommunikasiya sektorunun müdiri Səbinə Süleymanova ilə əlaqə saxlayın: sabina.suleymanova@tourismboard.az

## Nəticə

2025-ci il Marketinq Fəaliyyət Planı Azərbaycanı innovativ kampaniyalar və əməkdaşlıq imkanları vasitəsilə aparıcı qlobal səyahət detinasiyası kimi təqdim etmək üçün strateji bir yol müəyyən edir. Yerli və beynəlxalq maraqlı tərəflərlə əməkdaşlıq edərək Azərbaycanın əsas və inkişaf edən bazarlardakı görünməsini və təsirini artırır.

Tərəfdaşları ortaq brendinq, tədbirlərdə iştirak və xüsusi bazar  təşəbbüslərinə töhfə vermək imkanlarını araşdırmağa dəvət edirik. Ətraflı məlumat və ya tərəfdaşlıqları müzakirə etmək üçün bizimlə əlaqə saxlayın.